# Heydər Əliyev seyrəngahı Novruza hazırlaşır

**Bu məkanda nə varsa, hamısı göz oxşayır. Zövqlə salınmış seyrəngahda insanların istirahəti üçün hər şey nəzərə alınmışdır. Fəvvarələrin, şəlalələrin şırıltısı, müxtəlif növdən olan dekorativ ağaclar, güllər, çiçəklər, maral, ceyran, dağkeçisi heykəlləri, süni göl seyrangaha xüsusi gözəllik və təravət verir.**




Seyrəngahı gəzib-dolaşdıqca özünü təbiətin qoynunda hiss edir, gözəllikdən zövq alırsan. Gözünə, könlünə dinclik, rahatlıq gəlir. İstirahət ocağında söhbətgahlar, səliqəli oturacaqlar, özünəməxsus gecə işıqlandırıcı sistemi quraşdırıldığından onun axşamları da al-əlvan nura boyanır.

Seyrəngahda uşaqlar üçün də hər cür şərait yaradılıb. Balacaların ətrafa yayılan şən gülüşləri hər kəsdə xoş hisslər oyadır. Fikirləşirsən ki, çox yox, 10-15 il öncə bu qədim Muğan şəhərində bunların heç biri olmayıb.

İstirahət mərkəzində şahmat üçün böyükhəcmli lövhə qoyulub. Süni gölün üstündəki pavilyon, buradakı kafe isə seyrəngaha gələnlərin, xüsusən gənclərin ürəyincədir.

Bayramlarda, əlamətdar günlərdə seyrəngah daha çal-çağırlı, izdihamlı olur. Konsertlərin, mədəni-kütləvi tədbirlərin təşkili üçün Cəlilabad RİH tərəfindən bir müddət əvvəl seyrəngahın giriş qapısı önündə səhnə quraşdırılmışdır.

Bahar bayramı ərəfəsində seyrəngah xüsusi ovqatdadır. Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu məkan tezliklə nəinki rayon sakinlərini, Bakıda və digər yerlərdə yaşayan, bayramlaşmaq üçün doğmalarına, əzizlərinə baş çəkməyə gələn qonaqları da öz qoynuna alacaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 16 mart (№58).- S.12.